# “MODERN LEASİNG”
# Məhdud Məsuliyyətli Cəmiyyəti

**31 dekabr 2025-cİ il tarixinə**

**MALİYYƏ HESABATLARI VƏ
MÜSTƏQİL AUDİTOR RƏYİ**

**Mündəricat** | **Səhifə**


| | |
|---|---|
| **Müstəqil Auditorun Rəyi** | **1-3** |
| **Maliyyə vəziyyəti haqqında hesabat** | **1** |
| **Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat** | **2** |
| **Pul vəsaitlərinin hərəkəti haqqında hesabat** | **3** |
| **Kapitalda dəyişikliklər haqqında hesabat** | **4-5** |
| **Maliyyə hesabatları üzrə şərhlər və qeydlər** | **6-18** |

COMPASS
AUDIT-CONSULTING

Azərbaycan Respublikası, AZ 1012
Bakı şəhəri, Yeni Yasamal 2,ev 8/155
VÖEN :1301177541
Audit icazəsi AT № 185

8/155, Yeni Yasamal 2
AZ 1012, Baku, Azerbaijan
Tax ID : 1301177541
Audit License AT №: 185

Phone : (+99450) 2214241
Phone : (+99412) 5661932
Phone : (+99451) 3211210
E-mail: iskenderov@compassconsulting.az

oxwRTJRHAg

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"MODERN LEASİNG" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**

## Rəy

Biz , "MODERN LEASİNG" Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının " Peşəkar Mühasiblərin Etika məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda

fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəy daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar inamsızlıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatında maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk. Biz subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və

digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

**"COMPASS Audit-Consulting " MMC**

**Direktor- auditor:** **İsgəndərov Səməd Mahmud oğlu**

Bakı, Azərbaycan Respublikası

18 aprel 2026-cı il.

**Maliyyə vəziyyəti haqqında hesabat**
**31 dekabr 2025-ci il tarixə**

**VÖEN:1506627351**
**Mühasibat uçotu subyektinin adı: "Modern Leasing" MMC**

**Sahə (fəaliyyət növü):** **Maliyyə lizinqi**

**Mülkiyyət növü:** **Xüsusi**

**Ünvan: Bakı şəhəri, N.Nərimanov, Çinar Park Biznes Mərkəzi, Bina 6, Mərtəbə 3.**

**Ölçü vahidi: manat**

| Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | 31/12/2025 | | 31/12/2024 | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **AKTİVLƏR** | | | | | |
| **Qısamüddətli aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 29,112.95 | | 23,953.90 | |
| Lizinq üzrə alacaqlar (Qısamüddətli) | 5 | 209,000.75 | | 42,104.45 | |
| Digər debitor borcları | | | | | |
| Digər cari aktivlər | 6 | 2,933.76 | | 1,460.49 | |
| **Cəmi Qısamüddətli Aktivlər** | | | **241,047.46** | | **67,518.84** |
| **Uzunmüddətli Aktivlər** | | | | | |
| Lizinq üzrə alacaqlar (Uzunmüddətli ) | 8 | 252,449.46 | | 42,267.58 | |
| Əmlak və avadanlıqlar | | | | | |
| Qeyri-maddi aktivlər | | | | | |
| Digər uzunmüddətli aktivlər | 9 | 1,000.00 | | - | |
| **Cəmi Uzunmüddətli Aktivlər** | | | **253,449.46** | | **42,267.58** |
| **CƏMİ AKTİVLƏR** | | | **494,496.92** | | **109,786.42** |
| | | | | | |
| **PASSİVLƏR VƏ KAPİTAL** | | | | | |
| **Qısamüddətli öhdəliklər** | | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| Faiz borcları | | - | | - | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklə | 11 | 2,728.73 | | - | |
| Qısamüddətli kreditor borcları | 10 | | | 29,421.18 | |
| Sair qısamüddətli öhdəliklər | 11 | 40,707.16 | | 86,555.00 | |
| **Cəmi qısamüddətli ğhdəliklər** | | | **43,435.89** | | **115,976.18** |
| **Uzunmüddətli öhdəliklər** | | | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 12 | 292,306.00 | | - | |
| Təxirə salınmış vergi öhdəlikləri | | | | | |
| Uzunmüddətli kreditor borcları | | | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | **292,306.00** | | **-** |
| **Kapital** | | | | | |
| Nizamnamə kapitalı | 13 | 100,000.00 | | 100.00 | |
| Kapital ehtiyatları | | | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər | 13 | 58,755.03 | | (6,289.76) | |
| **Cəmi Kapital** | | | **158,755.03** | | **(6,189.76)** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | **494,496.92** | | **109,786.42** |

**Rəhbər** ____________

**Baş mühasib** ____________ "01" Aprel ____________ 2026-cı il.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti MODERN LEASING Limited Liability Company Azerbaijan Republic

**Mənfəət və ya Zərər haqqında hesabat**
**31 dekabr 2025-ci il tarixə**

**VÖEN:1506627351**
**Mühasibat uçotu subyektinin adı: "Modern Leasing" MMC**

**Sahə (fəaliyyət növü):** **Maliyyə lizinqi**

**Mülkiyyət növü:** **Xüsusi**

**Ünvan: Bakı şəhəri, N.Nərimanov, Çinar Park Biznes Mərkəzi, Bina 6, Mərtəbə 3.**

**Ölçü vahidi: manat**

| Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | 2025-ci il | XI-XII ay 2024-cü il |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Lizinq üzrə faiz gəlirləri | | 63,405.65 | 729.17 |
| Komissiya gəlirləri | | 77,772.15 | |
| Cərimə və gecikmə haqları | | | |
| Digər gəlirlər | | 247.78 | - |
| **Cəmi Gəlirlər** | 14 | **141,425.58** | **729.17** |
| Faiz xərcləri | | (21,100.33) | |
| Kredit zərərləri üzrə ehtiyatlar (ECL) | | | |
| İşçi heyəti üzrə xərclər | | (19,688.81) | (1,385.39) |
| Inzibati xərclər | | (19,413.71) | (4,499.62) |
| Amortizasiya xərcləri | | | |
| Digər xərclər | | (1,489.19) | (1,133.92) |
| **Cəmi Xərclər** | 15 | **(61,692.04)** | **(7,018.93)** |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **79,733.54** | **(6,289.76)** |
| Cari mənfəət vergisi | 16 | (2,728.73) | - |
| Vergi riski üzrə ehtiyat | | (11,960.03) | |
| Cəmi mənfəət vergisi | | (14,688.76) | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **65,044.79** | **(6,289.76)** |

**Rəhbər** ____________________

**Baş mühasib** ____________________ "02" Aprel ____________ 2026-cı il.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti MODERN LEASING Limited Liability Company Azerbaijan Republic

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
## (birbaşa metod)

**31 dekabr 2025-ci il tarixdə başa çatan il üçün**

**VÖEN:1506627351**
**Mühasibat uçotu subyektinin adı: "Modern Leasing" MMC**

**Sahə (fəaliyyət növü):** **Maliyyə lizinqi**

**Mülkiyyət növü:** **Xüsusi**

**Ünvan: Bakı şəhəri, N.Nərimanov, Çinar Park Biznes Mərkəzi, Bina 6, Mərtəbə 3.**

**Ölçü vahidi: manat**

| Göstəricilərin adı | 2025-ci il | XI-XII ay 2024-cü il |
|---|---|---|
| 1 | 2 | 3 |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL AXINLAR** | | |
| Maliyyə lizinqi ödənişlərindən daxil olan pul vəsaitləri | 402,036.98 | 60,711.31 |
| Digər əməliyyatlardan daxilolmalar | 10,587.65 | |
| **Cəmi daxilolmalar** | **412,624.63** | **60,711.31** |
| Təchizatçılara ödənilən vəsaitlər | (640,300.00) | (115,000.00) |
| İşçilərə ödənilən əmək haqqı | (13,748.43) | (1,267.54) |
| İnzibati və digər əməliyyat xərcləri | (30,554.10) | (2,997.56) |
| Vergi ödənişləri | (308.85) | |
| Digər əməliyyat xərcləri | (27,647.20) | (4,147.31) |
| **Cəmi çıxışlar** | **(712,558.58)** | **(123,412.41)** |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitləri** | **(299,933.95)** | **(62,701.10)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL AXINLARI** | | |
| Lizinq üçün alınmış aktivlər | | - |
| Əsas vəsaitlərin alınması | | - |
| Əsas vəsaitlərin satışından daxilolma | | - |
| digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin | 1,700.00 | |
| digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları; | (3,000.00) | |
| **İnvestisiya fəaliyyətindən xalis pul** | **(1,300.00)** | - |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN PUL AXINLARI** | | |
| Nizamnamə kapitalının qoyuluşu | 99,900.00 | 100.00 |
| Kreditlərin və borcların alınmasına görə pul vəsaitlərinin | 359,043.00 | 86,555.00 |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul | (152,550.00) | - |
| Dividend ödənişi | - | - |
| **Maliyyələşdirmədən xalis pul** | **306,393.00** | **86,655.00** |
| **Pul vəsaitlərinin xalis artımı(azalmas;)** | **5,159.05** | **23,953.90** |
| **İlin əvvəlində pul vəsaitləri** | **23,953.90** | - |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması | **5,159.05** | **23,953.90** |
| **İlin sonunda pul vəsaitləri** | **29,112.95** | **23,953.90** |

**Rəhbər** ____________________

**Baş mühasib** ____________________ «02» Aprel 2026-cı il.

**Kapitalda dəyişikliklər haqqında hesabat**
**31 dekabr 2025-ci il tarixə**

**VÖEN:1506627351**
**Mühasibat uçotu subyektinin adı: "Modern Leasing" MMC**

**Sahə (fəaliyyət növü):** **Maliyyə lizinqi**

**Mülkiyyət növü:** **Xüsusi**

**Ünvan: Bakı şəhəri, N.Nərimanov, Çinar Park Biznes Mərkəzi, Bina 6, Mərtəbə 3.**

**Ölçü vahidi: manat**

| Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | Yenidən qiy-mətləndirilmə üzrə | Qanunvericilik üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **Əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | 13 | - | | | | - | - |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | - | - |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | 13 | - | - | - | - | - | - |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | | - | - |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | **13** | | | | | (6,289.76) | (6,289.76) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | **13** | 100.00 | | | | | 100.00 |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | 13 | 100.00 | - | - | - | (6,289.76) | (6,189.76) |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | 13 | 100.00 | | | | (6,289.76) | (6,189.76) |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | - | - |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | 13 | 100.00 | - | - | - | (6,289.76) | (6,189.76) |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 13 | | | | | 65,044.79 | 65,044.79 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 13 | 99,900.00 | | | | | 99,900.00 |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | - | - |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | 13 | 99,900.00 | - | - | - | 65,044.79 | 164,944.79 |
| **Hesabat dövrünün sonuna qalıq** | 13 | 100,000.00 | - | - | - | 58,755.03 | 158,755.03 |

**Rəhbər:** ____________

**Baş mühasib:** ____________

"01" Aprel 2026-cı il.

**Maliyyə hesabatlarına şərhlər və qeydlər.**

## 1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixdə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq "Modern Leasing" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün tərtib edilmişdir.

**Müəssisə haqqında ümumi məlumat.**

"Modern Leasing" MMC Azərbaycan Respublikasında təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir. "Modern Leasing" Məhdud Məsuliyyətli Cəmiyyəti İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı İdarəsi tərəfindən 13.12.2023-cu il tarixdə 1506627351 nömrə (VÖEN) ilə dövlət qeydiyyatına alınmışdır.

Təsis sənədlərinə əsasən Müəssisənin mülkiyyət forması xüsusi , təşkilati-hüquqi forması məhdud məsuliyyətli cəmiyyətdir.

"Modern Leasing" MMC Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə məşğul ola bilər. Müəssisə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xüsusi icazə alınması tələb edilən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

Müəssisə hesabat dövründə maliyyə lizinqi fəaliyyəti ilə məşğul olmuşdur.

**Müəssisənin ünvanı**

Müəssisənin hüquqi ünvanı – Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev, ev 8,Mən.230

**Müəssisənin əməliyyat mühiti**

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Neft ixrac edən ölkə kimi və neft gəlirlərinin dövlət büdcəsinin gəlir hissəsində əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dünya bazar qiymətlərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahədə satış qiymətlərində yaranan kəskin fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir. Belə ki, neftin dəyərindəki kəskin dəyişikliklər milli valyutaya təzyiqin artmasına səbəb olmaqla iqtisadiyyat və sənaye sahələrinin inkişafına mənfi təsiri ilə yanaşı , həmçinin pul vəsaitlərinin dövriyyəsindəki məhdudiyyətlər və qeyri-sabitlik kimi makro-iqtisadi faktorların yaranmasına gətirib çıxarır.

**Müəssisənin əməliyyat mühiti (davamı)**

Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının səmərəliliyindən, eləcə də vergi, sosial sığorta, hüquq sisteminin inkişafından xeyli dərəcədə asılıdır.

Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Müəssisənin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

## 2. Uçot siyasətinin təqdimatı

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

**2.1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları**

Müəssisənin hazırkı maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) əsasında hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında istifadə olunmuş əsas mühasibat qaydaları aşağıdakılardır. Əgər digər hallar nəzərdə tutulmayıbsa, bu qaydalar davamlı olaraq maliyyə hesabatlarının bütün hissələrinə aid edilmişdir.

- **BMHS standartları**
- Davamlı fəaliyyət prinsipi
- Akkumuliyativ (hesablama) uçot metodu
- Tarixi maya dəyəri (zəruri hallarda ədalətli dəyər)

**Uçot valyutası**

**Funksional valyuta və hesabat valyutası**

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu, müəsisənin yerli valyutası olan Azərbaycan manatıdır (AZN).

**Hesabat dövrü:** 1 yanvar – 31 dekabr

**2.2. İlk dəfə tətbiq statusu**

Müəssisə 2023-cü ildə yaradılmasına baxmayaraq faktiki olaraq 2024-cü ilin noyabr ayında **fəaliyyətə başlamışdır.** Bu maliyyə hesabatları Müəssisənin BMHS-yə uyğun olaraq hazırlanmış ilk maliyyə hesabatlarıdır və IFRS 1 – Beynəlxalq Maliyyə Hesabatlarının İlk Tətbiqi standartına uyğun tərtib edilmişdir.

**2.2.1. Keçid tarixi**

Müəssisənin IFRS-ə keçid tarixi: 1 yanvar 2025-ci il

Bu tarixdə Müəssisə IFRS-ə uyğun açılış balansı hazırlamışdır.

**2.2.2. Açılış IFRS balansı**

Açılış balansında:

- IFRS-ə uyğun tanınmalı olan bütün aktiv və öhdəliklər tanınmışdır
- Uyğun olmayan maddələr balansdan çıxarılmışdır
- Ölçmələr müvafiq IFRS standartlarına uyğun aparılmışdır

**2.2.3. IFRS 1 üzrə istifadə olunan güzəştlər:**

Müəssisə IFRS 1-in icazə verdiyi aşağıdakı istəyə bağlı güzəştlərdən istifadə etmişdir:

**a) Əsas vəsaitlər**
Əsas vəsaitlər tarixi maya dəyəri ilə tanınmışdır.
Ədalətli dəyər kimi tətbiq edilməmişdir.

**b) Lizinq müqavilələri**
Keçid tarixindən əvvəl bağlanmış maliyyə lizinqi müqavilələri yenidən qiymətləndirilməmişdir.

**c) Maliyyə alətləri**
Maliyyə aktivləri IFRS 9-a uyğun olaraq keçid tarixindən etibarən təsnif edilmişdir.

### 2.2.4. Keçid düzəlişləri

IFRS-ə keçid nəticəsində yaranan bütün düzəlişlər 31 dekabr 2024-cü il tarixində birbaşa bölüşdürülməmiş mənfəətdə tanınmışdır.

### 2.2.5. Müqayisəli məlumatlar

31 dekabr 2025-ci il tarixdə başa çatan il üçün maliyyə hesabatları:

- Maliyyə vəziyyəti haqqında hesabat 31 dekabr 2024 tarixinə müqayisəli məlumatları əhatə edir.
- Digər maliyyə hesabatları Müəssisənin quruluş tarixindən 31 dekabr 2024-cü il tarixədək olan məlumatları əhatə edir.
- Müqayisəli məlumatlar IFRS-ə uyğun yenidən işlənmişdir

## 2.3. Xarici valyuta əməliyyatları

Əməliyyatlar və qalıqlar
Xarici valyuta ilə aparılan əməliyyatlar onların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə ilə digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.
Maliyyə hesabatlarının hazırlanması zamanı Müəssisə aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir.

31 dekabr 2025-ci il tarixə

1 ABŞ dolları - 1.7000 manat

1 Avro - 2.0022 manat

## 2.4. Lizinq əməliyyatlarının uçotu (IFRS 16)

**Lizinqin təsnifatı**

**İFRS 16-ya görə lizinq əməliyyatları:**

- Maliyyə lizinqi
- Operativ lizinq

kimi təsnif edilir.

**2.4.1 Maliyyə lizinqi (lizinq verən kimi)**

- Lizinq predmeti balansdan çıxarılır
- Lizinq üzrə **xalis investisiya** tanınır
- Faiz gəliri **effektiv faiz metodu** ilə tanınır

---

**2.4.2 Operativ lizinq**

- Aktiv balansda saxlanılır
- Amortizasiya IAS 16-ya uyğun hesablanır
- Lizinq gəliri müqavilə müddəti ərzində tanınır

Müəssisə lizinq əməliyyatlarının maliyyə lizinqi növü ilə məşğul olur.

---

**2.5. Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər)**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:

(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;

(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur.Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr müəssisəyə daxil olsun və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri bu xərclərin çəkildiyi dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir .

Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı həddləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat hesabından "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabına keçirilir.

**2.6. Amortizasiya**

Əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna əsasən , yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir.İllik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- Binalar,tikililər,qurğular – illik 7%
- Maşın və avadanlıqlar – illik 20%
- Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası-25 %
- Nəqliyyat vasitələri – illik 25%
- Mebel və təsərrüfat inventarları – illik 20%
- Sair əsas vəsaitlər –illik 20%

*Aktivin* ilin sonuna qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olduqda amortizasiya ayırması ilin sonuna qalıq dəyəri həcmində hesablanır.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**2.7. Qeyri-maddi aktivlər**

Müəssisədə qeyri-maddi aktivlər ilkin alış dəyəri ilə tanınır. Qeyri –maddi aktivlər üzrə İllik amortizasiya norması istifadə müddəti məlum olan aktivlər üzrə istifadə müddətinə mütənasib qaydada ,istifadə müddəti məlum olmayanlar üçün isə qalıq dəyərindən 10 % olaraq müəyyən edilmişdir.

**2.8. Ehtiyatlar**

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların uçotu birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Ehtiyatların dəyərinə bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan xərclər daxil edilir.

**2.9. Alıcılar və sifarişçilərin debitor borcları**

Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, müəssisə tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyər arasındakı fərqdir. Ehtiyatların yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**2.10. Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, korporativ kartlarda olan pul vəsaitləri , bank hesablaşma hesabları, digər tələbli bank hesabları, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksək likvidli investisiyalar əks etdirilir.

**2.11. İnvestisiyalar**

Müəssisə özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Borc vəsaitləri və debitor borcları,
- Başqa müəsisələrdə iştiraklar üzrə İnvestisiyalar;

**2.12. Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla ədalətli dəyər üzrə tanınır.

Kreditlər və borclar müəssisə tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətinədək ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

**2.13. Gəlirlərin tanınması**

Gəlirlər aşağıdakı hallarda tanınır:

- İqtisadi faydanın daxil olması ehtimalı olduqda
- Gəlirin məbləği etibarlı ölçüldükdə

2.14. **Əsas gəlir növləri:**

- Lizinq faiz gəlirləri
- Komissiya haqları
- Cərimə və gecikmə haqları (yığılması real olduqda)

**2.15. Maliyyə alətləri və ECL (IFRS 9)**

Lizinq alacaqları üzrə:

- **Gözlənilən kredit zərərləri (ECL)** modeli tətbiq olunur
- Aktivlər 3 mərhələyə bölünür (Stage 1, 2, 3)

$$ECL = PD \times LGD \times EAD$$

**2.16. Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub mənfəət və zərər hesabatında qeydə alınır.

Cari mənfəət vergisi cari dövr üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına

ödəniləcək məbləği təşkil edir. Müəssisədə mənfəət vergisi məqsədləri üçün gəlir və xərclərin müəyyən edilməsinin hesablama metodu tətbiq edilir.

Təxirə salınmış mənfəət vergisi aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respunlikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır

**2.17. Dividendlərin verilməsi**

Müəssisənin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Müəssisənin səhmdarları tərəfindən təsdiq edilmişdir (qərar qəbul edilmişdir).

## 3. Risklərin idarə edilməsi

***3.1. Maliyyə riski amilləri.***

Fəaliyyətin adi gedişində Müəssisə dəyişkən qiymətlər, valyuta məzənnələri və faiz dərəcələri nəticəsində yaranan bazar riskləri ilə üzləşir. Qiymətlərdəki dəyişikliklərdən asılı olaraq bazar qiymətlərindəki bu cür dəyişikliklər Müəssisənin maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Müəssisənin ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Müəssisənin maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur.

Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Müəssisənin əsas strategiyası güclü maliyyə mövqeyinin qorunıb saxlanmasından ibarətdir. Maliyyə riskinin vacib komponentləri likvidlik riski, xarici valyuta riski, faiz dərəcəsi riski və kredit riskidir.

*Likvidlik riski.* Likvidlik riski aktiv və öhdəliklərin ödəmə müddətlərinin uzlaşmadığı hallarda ortaya çıxır. Likvidlik riskinin ehtiyatlıqla idarə edilməsi pul vəsaitlərinin kifayət qədər məbləğdə saxlanmasını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarərtmə imkanlarını nəzərdə tutur. Likvidliyin idarə edilməsinə Müəssisənin yanaşması həm adi, həm də qeyri-adi şəraitdə Müəssisənin nüfuzuna qəbul edilməyən zərər və ya risk zərəri vurmamaqla, öhdəliklərin müddəti başa çatdıqda onların likvidliyini daim təmin elməkdən ibarətdir. Rəhbərlik, 31 dekabr 2025-ci il tarixində Müəssisənin cari ödəmə strukturunun hər hansı bir əhəmiyyətli likvidlik riskinə məruz qalmadığını hesab edir.

*Xarici valyuta riski.* Xarici valyuta riski, maliyyə alətlərinin dəyərinin xarici valyuta məzənnələrindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Xarici valyuta ilə ifadə edilmiş aktivlər (banklardakı pul vəsaitləri və debitor borcları) və öhdəliklər (kredit borcları və digər öhdəliklər) xarici valyuta riskini yaradır. Xarici valyuta riskini idarə etmək üçün Müəssisə hər hansı rəsmi prosedurlara malik olmasa da, rəhbərlik fəaliyyət göstərdiyi sektorda baş verən tendensiyalardan kifayət qədər məlumatlıdır və bu cür risklərin azaldılması üçün bəzi tədbirlər görmüşdür.

*Faiz dərəcəsi riski.* Faiz riski müəssisənin maliyyə alətləri üzrə gələcək pul vəsaitlərininhərəkətinin və ya maliyyə alətlərinin ədalətli dəyərinin bazar faiz dərəcələrində baş verən dəyişikliklər nəticəsində dəyişməsi riskidir. Müəssisə faiz riskinə əsasən dəyişkən faiz dərəcəli maliyyə aktivləri və öhdəlikləri vasitəsilə məruz qalır.Bu risk əsasən kreditlər,lizinq müqavilələri ,bank depozitləri və digər faiz gətirən

alətlərlə bağlıdır.

Müəssisə faiz riskini aşağıdakı üsullarla idarə edir:

- Sabit və dəyişkən faizli alətlərin balanslaşdırılması
- Faiz dərəcələrinin dəyişməsi üzrə mütəmadi monitorinqin aparılması
- Zərurət olduqda müqavilə şərtlərinə yenidən baxılması

Hesabat dövrünün sonuna müəssisənin əsas faiz riski dəyişkən faiz dərəcəli maliyyə alətləri ilə bağlıdır.

*Kredit riski.* Qarşı tərəf borcunu müəyyən edilmiş ödəmə müddətində tam ödəyə bilmədikdə. Müəssisə kredit riskinə məruz qalır. Adətən, maliyyə vəziyyəti haqqınıla hesabatda maliyyə aktivlərinin balans dəyəri Müəssisənin məruz qaldığı kredit riskinin maksimum miqdarını əks etdirir. Potensial kredit riskinin azaldılması üçün aktiv və öhdəliklərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir. Müəssisənin kredit riski üzrə konsentrasiyalara məruz qalan maliyyə alətləri əsasən nəğd pul və debitor borclarından ibarətdir.

## 4. Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir.

11 iyul 2000-ci il tarixli Qanunla qüvvəyə minmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsi ötən dövr ərzində vaxtaşırı olaraq əlavələrə, dəyişikliklərə və müxtəlif şərhlərə məruz qalmışdır.

Müəssisənin maliyyə hesabatları tətbiq edilən uçot siyasətinə uyğun hazırlanmışdır. Bu siyasətlərin əsas prinsipləri yuxarıda göstərilmişdir.
Maliyyə hesabatlarında əks olunan göstəricilərin daha ətraflı izahı və açıqlamaları aşağıda təqdim edilən izahlı qeydlərdə verilmişdir.

## 5. Qısamüddətli aktivlər

| | 2025 | 2024 |
|---|---|---|
| Maliyyə lizinqi üzrə qısamüddətli alacaqlar | 204174.22 | 42104.45 |
| Maliyyə lizinqi üzrə qısamüddətli faiz alacaqları | 4826.53 | 0.00 |
| Sair qısamüddətli debitor borclar | 0.00 | 0.00 |
| | **209000.75** | **42104.45** |

## 6. Digər qısamüddətli aktivlər

| | 2025 | 2024 |
|---|---|---|
| Verilmiş qısamüddətli borclar | 1300.00 | 0.00 |
| Verilmiş qısamüddətli avanslar | 1513.76 | 1340.48 |
| Dövlət büdcəsi ilə hesablaşmalar üzrə | 0.00 | 0.00 |
| Digər qısamüddətli aktivlər | 120.00 | 120.00 |
| | **2933.76** | **1460.49** |

## 7. Pul vəsaitləri və onun ekvivalentləri

| | 2025 | 2024 |
|---|---|---|
| Kassada olan nəğd pul vəsaitləri | 0.00 | 0.00 |
| Bank hesablarında olan pul vəsaitləri | 29112.57 | 23937.91 |
| Bank kart hesablarında olan pul vəsaitləri | 0.38 | 15.99 |
| | **29112.95** | **23953.90** |
| Bank hesablarında pul vəsaitlərindən: | | |
| Milli valyutada bank hesabları | **29112.95** | **23953.90** |
| Xarici valyutada bank hesabları | **0.00** | **0.00** |

## 8. Uzunmüddətli aktivlər

| | 2025 | 2024 |
|---|---|---|
| Maliyyə lizinqi üzrə uzunmüddətli alacaqlar | 252449.46 | 42267.58 |
| | **252449.46** | **42267.58** |

## 9. Digər uzunmüddətli aktivlər

| | 2025 | 2024 |
|---|---|---|
| Qeyri maddi aktivlər (Kompyuter proqramları və proqram lisenziyaları) | 1000.00 | 0.00 |
| | **1000.00** | **0.00** |

**10. Qısamüddətli kreditor borcları**

| | 2025 | 2024 |
|---|---|---|
| Təchizatçılara kreditor borclar | 0.00 | 29421.18 |
| Alınmış avanslar | 0.00 | 0.00 |
| Qısamüddətli bank kreditləri | 0.00 | 0.00 |
| Sair qısamüddətli kreditor borclar | 0.00 | 0.00 |
| | **0.00** | **29421.18** |

**11. Qısamüddətli öhdəliklər**

| | 2025 | 2024 |
|---|---|---|
| Dövlət büdcəsinə vergilər üzrə borclar | 2728.73 | 0.00 |
| Vergi riskləri üzrə ehtiyat | 11960.03 | 0.00 |
| Cəlb olunmuş maliyyə vəsaitləri üzrə öhdəliklər | 0.00 | 86555.00 |
| Cəlb olunmuş vəsaitlər üzrə faiz borcu | 17702.99 | 0.00 |
| Digər qısamüddətli öhdəliklər | 11044.16 | 0.00 |
| | **43435.90** | **86555.00** |

**12. Uzunmüddətli öhdəliklər**

| | 2025 | 2024 |
|---|---|---|
| Cəlb olunmuş maliyyə vəsaitləri üzrə öhdəliklər | 292306.00 | 0.00 |
| Digər uzunmüddətli öhdəliklər | 0.00 | 0.00 |
| | **292306.00** | **0.00** |

**13. Kapital ehtiyatları**

| | Yenidən qiymətləndirmə | Ödənilmiş nizamnamə kapitalı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər) | Cəmi kapital ehtiyatlar |
|---|---|---|---|---|---|

**üzrə ehtiyat**

| | | | | |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixə qalıq** | **0.00** | **0.00** | **0.00** | **0.00** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki dövrün əvvəlinə qalıq** | 0.00 | | 0.00 | 0.00 |
| 2024-cü il üzrə xalis mənfəət (zərər) | | | (6289.76) | (6289.76) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 100.00 | | | 100.00 |
| Dividendlər | | | (0.00) | (0.00) |
| **31dekabr 2024-cü il tarixə qalıq** | **100.00** | **0.00** | **(6289.76)** | **(6189.76)** |
| **Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər** | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | **100.00** | | **(6289.76)** | **(6189.76)** |
| **2025-ci il üzrə xalis mənfəət (zərər)** | | | **65044.79** | **65044.79** |
| **Mülkiyyətçilərin kapital qoyuluşları** | **99900.00** | | | **99900.00** |
| **Dividendlər** | | | **(0.00)** | **(0.00)** |
| **31dekabr 2025-ci il tarixə qalıq** | **100000.00** | **0.00** | **58755.03** | **158755.03** |

## 14. Əməliyyat gəlirlər

| | 2025 | 2024 |
|---|---|---|
| Maliyyə lizinqi üzrə faiz gəlirləri | 63405.65 | 729.17 |
| Komissiya gəlirləri | 77772.15 | 0.00 |
| Cərimə və gecikmə haqları | 0.00 | 0.00 |
| Digər gəlirlər | 247.78 | 0.00 |
| | **141425.58** | **729.17** |

## 15. Əməliyyat xərcləri

| | 2025 | 2024 |
|---|---|---|
| Faiz xərcləri | 21100.33 | 0.00 |
| İşçi heyəti üzrə xərclər - əmək haqqı | 16414.41 | 1385.39 |
| İşçi heyəti üzrə xərclər - sosial sığorta ayırmaları | 3274.40 | 297.77 |
| İcarə haqqı | 16765.44 | 0.00 |
| Bank xidməti üzrə xərclər | 1189.19 | 0.00 |
| Rabitə xərclərii | 702.81 | 0.00 |
| Ofis və təsərrüfat xərcləri | 626.66 | 0.00 |
| Sair xərclər | 1618.80 | 5335.77 |
| | 61692.04 | 7018.93 |

**16. Mənfəət vergisi**

| | 2025 | 2024 |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | 2728.73 | 0.00 |
| Vergi riskləri üzrə ehtiyat | 11960.03 | 0.00 |
| Cəmi mənfəət vergisi xərci | **14688.76** | **0.00** |

Müəssisənin 31 dekabr 2025-ci il tarixinə mənfəət vergisi üzrə cari öhdəliyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq hesablanmış və 2728.73 manat təşkil etmişdir.
Bununla yanaşı, müəssisə tərəfindən aparılmış daxili qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, bəzi əməliyyatlar üzrə vergi orqanları tərəfindən əlavə vergi hesablanması riski mövcuddur. Bu risklər əsasən Vergi Məcəlləsinin mənfəət vergisi üzrə güzəştləri nəzərdə tutan maddələrinin fərqli şərh edilməsi ehtimalı ilə bağlıdır.
Rəhbərliyin qiymətləndirməsinə əsasən, müəssisə tərəfindən mənfəət vergisinin hesablanması zamanı istifadə olunmuş güzəşt hüququ vergi orqanı tərəfindən fərqli yanaşma nəticəsində ləğv edilə bilər.Bununla əlaqədar olaraq müəssisə tərəfindən qeyd olunan risklər üzrə potensial vergi öhdəliyi 11960.03 manat məbləğində hesablanmışdır. Bu səbəbdən, ehtiyatlılıq prinsipinə uyğun olaraq maliyyə hesabatlarında həmin məbləğ üzrə ehtiyat yaradılmışdır.
Yaradılmış ehtiyat rəhbərliyin mövcud məlumatlara əsaslanan ən yaxşı qiymətləndirməsidir və gələcək dövrlərdə vergi orqanlarının qərarlarından asılı olaraq dəyişə bilər.

**17. Əlaqəli tərəflərlə əməliyyatlar.**

24 saylı "Əlaqəli tərəflər haqqında açıqlamalar" adlı BMHS-nın tələblərinə əsasən, əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Müəssisənin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana Müəssisələr, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Müəssisənin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli

dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Müəssisənin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Asılı müəssisələr Müəssisə tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Müəssisənin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(d) Müəssisənin və ya ana Müəssisənin idarə heyətinin üzvləri;

(e) (a) və ya (d) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(f) (d) və ya (c) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya

(g) İş müddəti bitdikdən sonra Müəssisənin keçmiş işçiləri və ya Müəssisənin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Ehtimal edilən hər hansı bir əlaqəli tərəli nəzərə alarkən, əlaqənin təkcə hüquqi formasına deyil, həmçinin iqtisadi mahiyyətinə diqqət yetirilir. Müəssisənin 2025-ci ildə əlaqəli tərəflərə aid aşağıdakı əməliyyatları olmuşdur

| | 31.12.2025-cü il tarixə | |
|---|---|---|
| | Əlaqəli tərəflərlə olan əməliyyatlar | Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ |
| Əməliyyat xərcləri | | |
| -Əmək haqları | 11100.00 | 16392.21 |
| -Təsisçilərə olan borclar | 190306.00 | 292306.00 |

**18. Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra əhəmiyyətli hadisə baş verməmişdir.

**Rəhbər** ____________

**Baş mühasib** ____________

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti MODERN LEASING Limited Liability Company Azerbaijan Republic